

# Milli qürur mənbəyimiz

***Allah-təala xəlq etdiyi milyardlarla bəşər övladının hərəsinə bir alın yazısı, tale qisməti bəxş edir. Uca yaradanın qoyduğu nizamla insanlar dünyaya gəlir, müəyyən ömür yolu keçdikdən sonra dünyadan köçürlər. Elə insanlar var ki, onların keçdiyi ömür yolu, dünyaya gəlişləri də, ölümləri də səssiz olur. Elə insanlar da var ki, onların taleyinə Uca Yaradanın qələmi ilə xilaskarlıq missiyası yazılır. Onların üzərinə bütöv bir xalqı, toplumu, bəzən isə bütün bəşəriyyəti birləşdirmək, öz ardınca cəmiyyəti və hər bir fərdi inkişafa, rifaha, firavan həyata, sabitliyə və əmin-amanlığa doğru aparmaq vəzifəsi düşür. Bu missiyanın icrası yolunda həmin insanlar keşməkeşli, təlatümlü, mübarizələrlə dolu həyat yaşayırlar. Elə bu səbəbdən də həmin insanların həyatı fərdi məzmununu itirərək ictimai əhəmiyyət kəsb edir, cəmiyyətin sevinci onların sevincinə, kədəri onların kədərinə dönür. Beləliklə, onların həyatı təlqin etdikləri məfkurə əsasında formalaşmış cəmiyyət və ya toplumun mövcudluğu qədər əbədi olur.***

Tanrının belə örnək olan ömür bəxş etdiyi insanlardan biri də Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevdir. O, sadə bir ailədə doğulub tərbiyə görmüşdü. Qurmaq, yaratmaq eşqi onun ürəyinə memar olmaq arzusunu gətirmişdi. Lakin tale və tarix bu dahi şəxsin nadir potensialından müasir Azərbaycan dövlətinin qurucusunu, memarını yetişdirdi. Heydər Əliyev memar ixtisası ala bilməsə də, respublikamızda tikdikləri və yaratdıqları ilə istedadlı və zövqlü memara çevrildi. Bu gün respublikamızın, xüsusilə, paytaxtımızın hüsnünü bəzəyən binalar əvəzsiz memarlıq inciləri kimi Heydər Əliyevin yadigarlarıdır. O, hakimiyyətdə olduğu təqribən otuz il ərzində hər üç ailədən birinə ev tikmiş, onları isti yuva sahibi etmişdi. Həmin dövrdə respublikanın bütün bölgələrində inşa edilən sənaye və kənd təsərrüfatı təyinatlı tikililər, müxtəlif təşkilatlara məxsus inzibati binalar şəbəkəsi Heydər Əliyevin məhsuldar memarlığının real kəmiyyət və keyfiyyət göstəriciləridir. Xalq arasında formalaşmış "Azərbaycanda Heydər Əliyevin tikdiklərini söksən yerində Hacı Zeynalabdin Tağıyevin tikdikləri qalar" deyimi Heydər Əliyev memarlığının və quruculuğunun gerçək miqyasından xəbər verir.

Heydər Əliyev, sözün bütün mənalarında, memar idi. O, sovet dönəmindəki hakimiyyəti illərində Azərbaycanın sosial, iqtisadi, hüquqi, mədəni və mənəvi əsaslarını formalaşdırdı, qurdu və sonradan bu əsaslar müasir, müstəqil dövlətimizin dayaqlarına çevrildi.

O, hələ birinci dəfə sovet dönəmində Azərbaycana rəhbərliyə gəldikdən sonra ilk növbədə tarixin sınaqlarına davam gətirə bilməyib, yox olmaq təhlükəsi ilə üz-üzə qalan azərbaycançılıq ideologiyasını dirçəltdi. Nəticədə o, respublikamızın bütün əhalisini bu məfkurə ətrafında sıx birləşdirərək, bizi milli özünüdərk məqamına çatdırdı, xalqa onun milli mənliyini qaytardı, milli mənsubiyyətimizi qürur mənbəyimizə çevirdi.

Ulu öndərin bu sahədəki fəaliyyəti Vətənə, xalqa məhəbbət və sədaqət etalonu idi. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Onun dilindən bu sözləri eşidən, səsindəki milli qüruru duyan hər bir azərbaycanlını milli şərəf və ləyaqət hissləri bürüyür.

Hər birimizə azərbaycanlı olduğumuzu anladan böyük lider millətimizin mövcudluğunun əsas atributlarından sayılan və ruslaşdırma siyasətinin basqısı altında əriməkdə olan dilimizə yeni həyat verdi. Məhz, onun təkidi, inadı və ağıllı siyasəti sayəsində Azərbaycan dilinin konstitusiya səviyyəsində respublikamızda rəsmi dövlət dili elan edilməsi bir millət kimi mövcudluğumuzu təsdiq və təmin edən amillərdən birinə çevrildi. Mübaliğəsiz demək olar ki, Heydər Əliyev dilimizin böyük himayədarı və bilicisi idi. Nadir söz ehtiyatı sayəsində işlətdiyi, müxtəlif şivələrə məxsus ümumişlək, bəzən də unudulmaqda olan arxaik ifadələrin dinləyənlərdə dilimizin leksik zənginliyini daim möhkəmləndirirdi. Onun natiqlik istedadı, dilimiz imkanlarından məharətlə istifadə etməsi, şifahi nitqinin kamilliyi və üslub xüsusiyyətləri istənilən auditoriyanı vəcdə gətirirdi. O, sözün qüdrəti ilə hər bir kəsi dediklərinin doğruluğuna inandırmağı və arxasınca aparmağı bacaran xarizmatik bir şəxsiyyət idi. Hər bir kəs doğruluğuna zərrə qədər şübhə və müzakirə etmədən onun dediklərini İlahi həqiqət kimi qəbul edirdi. O, bir sözünün gücü ilə yüz minlərlə insanı dövlət çevrilişinə cəhd edənlərin qarşısına çıxarır, "El gücü – sel gücü" prinsipi ilə bədxahlarını məğlub edirdi.

Heydər Əliyev elmimizin, mədəniyyətimizin və incəsənətimizin böyük hamisi idi. Onun himayəsi ilə ümumittifaq və ümumdünya səviyyəsinə yüksəlmiş Rəşid Behbudov, Müslüm Maqomayev, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov kimi sənət korifeylərimizi unutmaq olarmı? Elə kütləvi-mədəni tədbir, konsert, tamaşa olmazdı ki, Heydər Əliyev tədbirdən sonra pərdə arxasına keçib sənətkarlıq baxımından dəyərli qeydlərini ifaçılara bildirməsin. Onun hakimiyyətdə olduğu illərdə Azərbaycan elmi inkişafa doğru sıçrayış etdi, respublikada və respublikamızdan kənarda ali təhsil alıb, xalq təsərrüfatında fəaliyyətə başlayan ixtisaslı azərbaycanlıların xüsusi çəkisi əvvəlki illərlə müqayisəyəgəlməz dərəcədə artdı, elmi potensialımız zənginləşdi və möhkəmləndi.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan geridə qalmış aqrar ölkədən nəhəng sənaye potensialına malik bir gücə çevrildi. Respublikamızın müxtəlif regionlarını əhatə edən sənaye müəssisələri, böyük elektrik stansiyaları, çəkilən yeni dəmir yolları hələ uzun illər iqtisadiyyatımızın inkişafına xidmət edəcəkdir.

Heç şübhəsiz ki, Heydər Əliyevin fəaliyyətinin ən mühüm və önəmli hissələrindən biri də müasir, müstəqil Azərbaycanın yaradılması və möhkəmləndirilməsi ilə bağlıdır. Siyasət və hakimiyyət zirvəsinə doğru qətiyyətlə, inamla yüksələn Heydər Əliyev bir zamanlar Moskvaya – Sovet İttifaqı kimi fövqəldövlətin rəhbərliyinə dəvət ediləndə soyuq şimala ürəyində qaladığı əbədiyanar Azərbaycan odunu aparmışdı. Tarixin çox ziddiyyətli bir dönəmində bu odun hərarəti onu parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qalmış doğma torpağa xilaskarlıq missiyası ilə qaytardı. Yenicə müstəqillik əldə etmiş respublikamız Qarabağımızda erməni fitnəsi ilə üz-üzə qalanda o, yada düşdü və hər bir azərbaycanlının ürəyindən bir imdad nidası qopdu: "Heydər baba, xalqı bu bəladan qurtar!".

Heydər Əliyev kimi vətənpərvər və həssas bir insan ana yurdun çağırışlarına və göz yaşlarına biganə qala bilməzdi. O, Moskvanı tərk edərək, mühasirə pəncəsində inləyən, soyuq, şaxtalı, hər an işğal təhlükəsi ilə üz-üzə tək qalmış, o vaxtkı respublika rəhbərliyinin riyakarlıqla "kor bağırsaq" adlandırdığı doğma Naxçıvana gəldi. Onun Naxçıvana qədəm basdıqdan sonra diz çöküb ana torpağı öpməsi qəlbləri ehtizaza gətirən bir səhnə kimi daim yaddaşlarda qalacaq və hər bir Azərbaycan vətəndaşına doğma torpağa məhəbbət və sədaqət örnəyi olacaq.

1993-cü ilin qanlı iyun günlərində sinəsi qardaş qırğınına meydan olan, günbəgün yeni torpaqları erməni qəsbkarları tərəfindən işğal edilən bütün Azərbaycan ayağa qalxdı və təkidlə Heydər Əliyevi respublika rəhbərliyinə çağırdı.

Heydər Əliyevin Azərbaycana qayıdışı ilə hər bir vətən oğluna inam və güc gəldi. Başsız qalmış ordu sərkərdənin gəlişindən ruhlanaraq tankların üzərinə "Əliyev uğrunda irəli!" yazıb erməninin üstünə yeridi. Neçə-neçə vətən oğlu belinə qumbara bağlayıb özünü erməni tanklarının altına ataraq yenilməzlik simvoluna döndü, şəhidlik zirvəsinə yüksəldi. Tezliklə amansız düşmən geri oturduldu və atəşkəs barədə saziş imzalamağa məcbur edildi.

Bundan sonra o, hələ sovet dönəmində Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması ilə əsasını qoyduğu Milli Ordu quruculuğunu ciddi tələbkarlıqla və nizamla davam etdirməyə başladı. Tezliklə düşmənə göz dağı olan Milli Ordumuz formalaşdırıldı. Bu ordunun Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı işğaldan azad etmək üçün zəfər yürüşünə atılacağı gün uzaqda deyil.

Heydər Əliyev hakimiyyətə qayıdışından sonra Azərbaycanı çulğamış iqtisadi-mədəni və mənəvi tənəzzülün qarşısını aldı, inkişaf başladı. Hər şeydən əvvəl, müstəqil Azərbaycanda formalaşmış yeni ictimai münasibətləri özündə əks etdirən yeni konstitusiyamızın layihəsi hazırlandı və ümumxalq səsverməsi ilə qəbul edildi. Konstitusiya yeni ictimai-iqtisadi münasibətləri tənzimləyəcək normaların yaradılması üçün əsas rəhbər baza oldu. Müstəqil Azərbaycanımızın bütün dünyəvi dəyərləri özündə əks etdirən ilk Konstitusiyası sayəsində ölkəmizin hazırkı mükəmməl qanunvericilik sistemi formalaşdırıldı.

Ulu öndər əvəzsiz təbii sərvətimiz olan neftimizin imkanlarını hazırladığı xüsusi strategiya əsasında tam həcmdə dövlətimizin inkişafına yönəltdi. Onun qətiyyəti və siyasəti sayəsində bir sıra fövqəldövlətlərin Azərbaycan nefti ilə bağlı toqquşan maraqları neytrallaşdırıldı. 1994-cü ildə Azərbaycanın neft yataqlarının istismarı ilə bağlı bir sıra xarici şirkətlərlə imzalanmış "Əsrin müqaviləsi" xalqımızın rifahına, iqtisadi dirçəlişə xidmət etməyə başladı. Hazırda həmin müqavilə sayəsində Azərbaycan Qafqazda yenilməz iqtisadi gücə çevrilmişdir. Azərbaycanda hər il yeni-yeni iri sənaye müəssisələri açılır, kənd təsərrüfatı inkişaf edir. Elə bunun nəticəsidir ki, son illərdə Azərbaycan iqtisadiyyatın artım tempinə görə bütün dünya ölkələri arasında liderlik edir.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan elminə və mədəniyyətinə ikinci nəfəs gəldi. Ulu öndərin rəhbərlikdə olmadığı dövrlərdə müxtəlif cərəyanların təsiri altına düşən mədəniyyətimiz onun qayıdışından sonra milli mentalitetimizdən, vətənpərvərlik duyğularımızdan mayalanan əzəli mövqeyinə qayıtdı.

Mühafizəkarlıq Heydər Əliyevin təbiətinə yad idi. O, sözün həqiqi mənasında, böyük islahatçı idi. Bu baxımdan, demək olar ki, Heydər Əliyevin fəaliyyətinin çox mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri də məhkəmə hüquq islahatları ilə bağlıdır. Azərbaycanda üçpilləli məhkəmə sisteminin yaradılması, məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsini təmin edən qanunvericilik bazasının hazırlanması, hakimlərin maddi təminatının yaxşılaşdırılması, hakim vəzifəsinə namizədlərin seçilməsinin və təyin edilməsinin şəffaf prosedurunun müəyyən edilməsi Heydər Əliyevin islahatçı ruhundan qaynaqlanırdı. Ümummilli lider tərəfindən vaxtında başlanmış və onun tərəfindən müəyyən olunmuş düzgün strategiya ilə davamlı olaraq həyata keçirilmiş məhkəmə-hüquq islahatlarının bugünkü nəticələri isə qürurvericidir.

Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının qiymətləndirməsinə və Avropa İttifaqının birgə həyata keçirdiyi "Şərq Tərəfdaşlığı Ölkələrində məhkəmə-hüquq islahatlarının genişləndirilməsi" layihəsi üzrə hesabata, həmçinin Avropanın bir sıra nüfuzlu ekspertlərinin rəylərinə görə, Azərbaycanda hakim vəzifəsinə namizədlərin seçim sistemi (modus operandi) Avropada bu sahədə istifadə edilən ən mükəmməl təcrübə kimi qiymətləndirilmiş, Azərbaycanın kifayət qədər qısa müddət ərzində məhkəmə sistemini bütövlükdə yenidən qurması qeyd olunmuşdur. Bütün bunların nəticəsidir ki, Azərbaycan öz məhkəmə-hüquq sistemindəki islahatları ilə Avropada fəaliyyəti qiymətləndirilən ölkədən digər ölkələrin bu sahədə fəaliyyətini qiymətləndirən ölkəyə çevrilmişdir. Azərbaycan məhkəmə sistemində qurduğu ən müasir elektron məhkəmə informasiya sistemi ilə nüfuzlu Avropa ölkələri arasında keçirilən müsabiqədə Avropada Ədalət Mühakiməsinin "Büllur Tərəzisi" mükafatına layiq görülmüşdür. Bu sistemin tətbiqi ilə Azərbaycanda insanların ədalət mühakiməsinə əlçatanlığı, proseslərin tezliyi və prosessual qənaət prinsipləri tam təmin olunmuşdur.

Heydər Əliyevin əsasını qoyduğu siyasət məhkəmə sistemini nəinki məzmunca, həm də formaca təkmilləşdirdi. Bu gün Azərbaycanda tikilən, müasir tələblərə cavab verən məhkəmə binaları, məhkəmə orqanlarının maddi-texniki bazasının daim inkişaf etdirilməsi buna əyani sübutdur. Respublika ərazisində məhkəmələrin yüksək zövqlə inşa olunmuş inzibati binalarla təmin edilməsi ulu öndərin məhkəmələrin onların yüksək statusuna uyğun binalarla təmin edilməsi barədə müvafiq sərəncamının respublika rəhbərliyi tərəfindən yüksək məsuliyyətlə yerinə yetirilməsinin nəticəsidir.

Heydər Əliyev həm də böyük mərhəmət, ədalət və insanpərvərlik rəmzi idi. O, Azərbaycanda ikinci dəfə hakimiyyətdə olduğu müddətdə minlərlə insan barəsində amnistiya aktlarının verilməsi təşəbbüsü ilə çıxış etmiş, yüzlərlə məhkumun əfv edilməsi barədə fərmanlar imzalamışdı. Məhz, onun təşəbbüsü ilə müsəlman ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası ləğv edilmişdi.

O, fenomen rəhbərlik istedadı ilə azərbaycanlıların müstəqil dövlət qurmaq və onu bacarıqla idarə etmək qabiliyyətində olduqlarına şəxsi nümunə idi. Hətta siyasi rəqiblərinin dilindən özü haqqında "Hakimiyyət ustası" ifadəsini qoparan da Heydər Əliyevin idarəetmək bacarığı idi. O, nəinki dövləti idarə edirdi, həm də ondan sonra Azərbaycanı hələ onilliklər boyu ağılla və uğurla idarə etmək qabiliyyətində olan siyasətçiləri yetişdirmək barədə düşünürdü.

Heydər Əliyev siyasi məktəbinin layiqli yetirmələrindən və onun başladığı yolun layiqli davamçılarından biri də Azərbaycan Respublikasının hazırkı Prezidenti möhtərəm İlham Əliyevdir. Azərbaycan xalqı Heydər Əliyevin cismani yoxluğundan sonra öz taleyini və dövlətçiliyini böyük inamla cənab İlham Əliyevə etibar etmişdir və bu gücü, dayağı hər an hiss edir.

Sadaladıqlarımız Heydər Əliyevin nəhəng fəaliyyətindən çox cüzi nümunələrdir. Onun Azərbaycan dövləti, Azərbaycan xalqı üçün gördüyü işlərin təkcə xronologiyası cildlərlə kitaba sığmaz.

Yorulmaz fəaliyyəti və əməyi sayəsində qurub-yaratdıqları ilə Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə abidə ucaldaraq Azərbaycan xalqının ümummilli liderinə çevrilmiş və ürəklərdə əbədiyaşarlıq qazanmışdır.

Ümummilli lider hər bir azərbaycanlını xalqımızın milli sərvəti hesab edirdi. Bu gün isə hər bir azərbaycanlı böyük fəxrlə deyə bilər: – Heydər Əliyev Azərbaycan xalqının milli iftixarı və ən qiymətli milli sərvətidir.

***Vəli ABDULLAYEV,***
***Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin sədri***